# Azərbaycan Milli Antidopinq Agentliyi Publik Hüquqi şəxs

**31 dekabr 2020-ci il tarixində bitən il üzrə**

**MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTORUN RƏYİ**

## MÜNDƏRİCAT:


| | Səh. № |
|---|---|
| Maliyyə hesabatlarının hazırlanmasına və təqdim edilməsinə görə məsuliyyət haqqında rəhbərliyin bəyanatı | 3 |
| Müstəqil auditorun hesabatı | 4 |
| 31 dekabr 2020-ci il tarixinə bitən il üzrə maliyyə vəziyyəti haqqında hesabat | 5-6 |
| 31 dekabr 2020-ci il tarixində bitən il üzrə maliyyə vəziyyətinin nəticələri haqqında hesabat | 7 |
| 31 dekabr 2020-ci il tarixində bitən il üzrə xalis aktivlər/kapitalda dəyişikliklər haqqında hesabat | 8 |
| 31 dekabr 2020-ci il tarixində bitən hesabat dövrü üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 9-11 |
| Cəmiyyət haqqında məlumat | 12 |
| Əməliyyat mühiti | 12 |
| Təqdimatın əsası | 12 |
| Əməliyyat valyutası | 12 |
| Uçot siyasətləri | 12 |
| Uçot metodu | 12 |
| Gəlirlərin və xərclərin uçotu | 12 |
| Pul vəsaitləri və ekvivalentləri | 12 |
| Banklarda yerləşdirilmiş əmanətlər | 12 |
| Ödəniş tarixinədək saxlanılan investisiyalar | 13 |
| Əsas vəsaitlərin amortizasiyası | 13 |
| Qeyri-maddi aktivlər və amortizasiya | 13 |
| Ehtiyatlar | 13 |
| Vergilər | 13 |
| İnvestisiyalar | 13 |
| Qiymətləndirilmiş öhdəliklər | 14 |
| Xarici valyuta ilə aparilmiş əməliyyatlar | 14 |
| Əvəzləşdirmə | 14 |
| İşçilərin əməyinin ödənilməsi ilə bağlı xərclər və məcburi sosial siğorta ayırmaları | 14 |
| Əlaqəli tərəflərlə əməliyyatlar | 14 |
| Maliyyə alətləri və onların ədalətli dəyəri | 14 |
| Maliyyə aktivləri | 15 |
| Maliyyə öhdəlikləri | 15 |
| Maliyyə aktivi və ya maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyəri və effektiv faiz metodu | 15 |
| Əməliyyat risklərinin idarə edilməsi | 15 |
| Hesabat tarixindən sonra baş vermiş hadisələr | 16 |

# Azərbaycan Milli Antidopinq Agentliyi Publik Hüquqi şəxs
# VÖEN 1503403061

### MALİYYƏ HESABATLARININ HAZIRLANMASINA VƏ TƏQDİM EDİLMƏSİNƏ GÖRƏ MƏSULİYYƏT HAQQINDA RƏHBƏRLİYİN BƏYANATI

Bu bəyanat Azərbaycan Milli Antidopinq Agentliyi Publik Hüquqi şəxs (bundan sonra "Agentlik" adlandırılacaq) 31.12.2020-ci il tarixində bitən hesabat ili üzrə maliyyə hesabatları ilə bağlı "Global Audit" MMC-nin (bundan sonra "müstəqil auditor" adlandırılacaq) hesabatında şərh edilən məsələlərə görə Agentliyin rəhbərliyinin müvafiq məsuliyyətini müstəqil auditorun məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Agentlikdə mühasibat uçotunun uçot siyasətinə əsasən düzgün formalaşdırılmasına və mühasibat uçotu standartlarına və uçot qaydalarına uyğun aparılmasına və Agentliyin maliyyə vəziyyətini, aparılmış əməliyyatların nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatlarının hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə görə məsuliyyət daşıyır.

Agentlik 31 dekabr 2020-ci il tarixində bitən il üzrə maliyyə hesabatlarını Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (bundan sonra "BMHS") müvafiq tərtib etmişdir.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik:

- uyğun mühasibat prinsiplərinin seçilməsinə və mütəmadi olaraq tətbiq edilməsinə;
- məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsinə;
- maliyyə hesabatlarının sadələşdirilmiş uçotun qaydalarına uyğunluğunun bəyan edilməsinə və əgər bu qaydalardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanmasına və izah edilməsinə;
- əgər yaxın gələcəkdə Agentlik işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Agentliyin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanmasına, qurulmasına və möhkəmləndirilməsinə;
- Agentliyin maliyyə hesabatlarının sadələşdirilmiş uçotun qaydalarına uyğun olaraq düzgün hazırlanmasına və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil edilməsinə;
- mühasibat uçotu sisteminin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təşkil edilməsinə;
- mümkün imkanlardan istifadə edərək Agentliyin aktivlərinin mühafizəsinin təşkil edilməsinə;
- saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsinə və qarşısının alınmasına görə məsuliyyət daşıyır.

**Hüseynli Şəfəq Tofiq qızı**
Direktor
Azərbaycan Respublikası, Bakı şəhəri
30 iyun 2021-ci il

**İbrahimova Səma Vaqif qızı**
Maliyyə şöbəsinin müdiri
Azərbaycan Respublikası, Bakı şəhəri
30 iyun 2021-ci il

GLOBAL AUDIT

Limited Liability Company Məhdud Məsuliyyətli Cəmiyyəti
VÖEN/ TIN: 2003615731
Azərbaycan Respublikası, AZ1007, Bakı şəhəri, Nəsimi Rayonu, Hənifə Ələsgərov küçəsi 37. Mob: (+994 50) 247 36 14
Azerbaijan Republic, AZ1007, Baku, Nasimi district, Hanifa Alasgarov 37. Mob: (+994 50) 247 36 14

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**Azərbaycan Milli Antidopinq Agentliyi Publik Hüquqi şəxsnin rəhbərliyinə**

**Maliyyə hesabatlarının auditinə dair hesabat**

**Rəy**

Biz Azərbaycan Milli Antidopinq Agentliyi Publik Hüquqi şəxsin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, eləcə də uçot siyasəti və digər izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.
Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (bundan sonra "BMHS") uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Agentlikdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının mühasibat uçotu standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Agentliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul olan səlahiyyətli şəxslər Agentliyin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun olaraq aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkarlayacağına zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

"Global Audit" MMC adından
Azər Pirimov, direktor və auditor
Azərbaycan Respublikası, Bakı şəhəri
30 iyun 2021-ci il

## MALIYYƏ VƏZIYYƏTI HAQQINDA HESABAT

**FORMA № 1**

**31 dekabr 2020**

VÖEN 1503403061

**Müəssisə, təşkilat** Azərbaycan Milli AntiDopinq Agentliyi Publik Hüqu

**Sahə (fəaliyyət növü)** antidoppinq xidməti

**Mülkiyyətin növü** dövlət

**Ünvan** Bakı ş, Nərimanov ray, Olimpia küç., ev 4

**Ölçü vahidi: manat**

| Böl-mə madd | Bölmə/Maddələrin adı | Qeyd lər | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | **AKTİVLƏR** | | | | | |
| 1 | **Qısamüddətli aktivlər** | | | | | |
| 10 | Pul vəsaitləri və onların ekvivalentləri | | 288 613,12 | | - | |
| 11 | Qısamüddətli debitor borcları | | | | | |
| 12 | Ehtiyatlar | | 178 055,25 | | 51 709,30 | |
| 13 | Sair qısamüddətli maliyyə aktivləri | | | | | |
| 14 | Sair qısamüddətli aktivlər | | 11 289,43 | | 1 004,43 | |
| | **Cəmi qisamüddətli aktivlər** | | | **477 957,80** | | **52 713,73** |
| | | | | | | |
| 2 | **Uzunmüddətli aktivlər** | | | | | |
| 20 | Uzunmüddətli debitor borcları | | | | 10 285,00 | |
| 21 | Iştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | | | |
| 22 | Sair uzunmüddətli maliyyə aktivləri | | | | | |
| 23 | Torpaq, tikili və avadanlıq və digər uzunmüddətli aktivlər | | 195 014,95 | | 121 774,04 | |
| 24 | Qeyri-maddi aktivlər | | | | | |
| 25 | Sair uzunmüddətli qeyri-maliyyə aktivləri | | | | | |
| 26 | Təxirə salınmış vergi aktivləri | | | | | |
| 27 | Sair uzunmüddətli aktivlər | | | | | |
| | **Cəmi uzunmüddətli aktivlər** | | | **195 014,95** | | **132 059,04** |
| | **CƏMI AKTIVLƏR** | | | **672 972,75** | | **184 772,77** |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| | **ÖHDƏLIKLƏR** | | | | | |
| 3 | **Qisamüddətli öhdəliklər** | | | | | |
| 30 | Qısamüddətli kreditor borcları | | 25 255,03 | | 89 242,36 | |
| 31 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 32 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 33 | Sair qısamüddətli öhdəliklər | | 299 902,55 | | 11 289,43 | |
| | **Cəmi qisamüddətli öhdəliklər** | | | 325 157,58 | | 100 531,79 |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | | | |
| 40 | Uzunmüddətli kreditor borcları | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 41 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | | |
| 42 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | | |
| 43 | Sair uzunmüddətli öhdəliklər | | | | | |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | | - | | - |
| | **Cəmi öhdəliklər** | | | 325 157,58 | | 100 531,79 |
| **5** | **Xalis Aktivlər və Kapital** | | | | | |
| 50 | Ödənilmiş (nizamnamə) kapitalı | | | | | |
| 51 | Emissiya gəliri | | | | | |
| 52 | Geri alınmış kapital | | | | | |
| 53 | Kapital ehtiyatları və fondlar | | 373 070,20 | | 173 483,34 | |
| 54 | Bölüşdürülməmiş mənfəət (ödənilməyən zərər) | | (25 255,03) | | (89 242,36) | |
| | **Cəmi xalis aktivlər (kapital)** | | | **347 815,17** | | **84 240,98** |
| | **Cəmi xalis aktivlər (kapital) və öhdəliklər** | | | **672 972,75** | | **184 772,77** |

**Hüseynli Şəfəq Tofiq qızı**
Direktor
Azərbaycan Respublikası, Bakı şəhəri
30 iyun 2021-ci il

SAMADA

**İbrahimova Səma Vaqif qızı**
Maliyyə şöbəsinin müdiri
Azərbaycan Respublikası, Bakı şəhəri
30 iyun 2021-ci il

**MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT** (xərclərin ƏLAVƏ 2

**31 dekabr 2020**

**Müəssisə, təşkilat** **Azərbaycan Milli AntiDopinq Agentliyi Publik Hüquqi şəxs**

antidoppinq xidməti

2020 il

**ölçü vahidi: manat**

| Göstəricilər | Qeyd lərə istinad | Hesabat dövrü üzrə | | Əvvəlki dövr üzrə | |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Gəlirlər** | | | | | |
| Vergilər | | | | | |
| Qeyri-birja əməliyyatlarından | | 2 921 386,88 | | 3 107 715,42 | |
| Birja əməliyyatlarından gəlir | | | | | |
| Sair əməliyyat gəliri | | 53 676,57 | | | |
| **Cəmi gəlirlər** | | | **2 975 063,45** | | **3 107 715,42** |
| | | | | | |
| **Xərclər** | | | | | |
| Əmək haqqı, maaş və işçilərin mükafatlandırılması (DSMF) | | 1 226 960,44 | | 1 046 288,70 | |
| Maliyyə yardımları və sair transfer ödənişləri | | | | | |
| Təchizat və istehsal prosesində sərf edilən xammal və materiallar | | 77 395,76 | | 144 552,15 | |
| Amortizasiya (köhnəlmə) xərcləri | | 59 909,55 | | 47 966,18 | |
| Sair əməliyyat xərcləri | | 1 405 531,10 | | 1 586 948,24 | |
| Maliyyə xərcləri | | | | | |
| **Cəmi Xərclər** | | | **2 769 796,85** | | **2 825 755,27** |
| **Ümumi mənfəət** | | | **205 266,60** | | **281 960,15** |
| Əmlakın əvəzsiz alınmasından (verilməsindən) qazanc (itkilər) | | | | | |
| **Kapital Ehtiyatları** | | | **141 279,27** | | **152 116,54** |
| **Hesabat dövrü üzrə xalis mənfəət (zərər)** | | | 63 987,33 | | 129 843,61 |
| Asılı müəssisələrin Mənfəət və ya Zərərinin payı | | | | | |

**Hüseynli Şəfəq Tofiq qızı**
Direktor
Azərbaycan Respublikası, Bakı şəhəri

30 iyun 2021-ci il

**İbrahimova Səma Vaqif qızı**
Maliyyə şöbəsinin müdiri
Azərbaycan Respublikası, Bakı şəhəri

30 iyun 2021-ci il

**XALİS AKTİVLƏR/KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT** ƏLAVƏ 3

**31 dekabr 2020**

**Müəssisə, təşkilat** **Azərbaycan Milli AntiDopinq Agentliyi Publik Hüquqi şəxs**

antidoppinq xidməti

ölçü vahidi: manat

| | Qeydlərə istinad | Əsas Təşkilatın Mülkiyyətçilərinə aid edilə bilən | | | | | Azlıqların payı | Cəmi Xalis Aktivlər/Kapital |
|---|---|---|---|---|---|---|---|---|
| | | Ödənilmiş Səhmdar kapital | Digər Ehtiyat fondları[1] | Məzənnə fərqləri üzrə fondlar | Bölüşdürülməmiş mənfəət/ (ödənilməmiş zərər) | Cəmi | | |
| Əvvəlki hesabat dövrünün əvvəlinə balans | | | 21 366,80 | | | 21 366,80 | | **21 366,80** |
| Uçot siyasətində dəyişikliklər | | | | | | | | |
| **Əvvəlki hesabat dövrünün əvvəlinə düzəliş edilmiş balans** | | | | | | | | |
| | | | | | | | | |
| **Əvvəlki hesabat dövrü üzrə Xalis Aktivlər/Kapitalda dəyişikliklər** | | | | | | | | |
| Əmlakın yenidən qiymətləndirilməsindən qazanc və | | | | | | | | |
| İnvestisiyaların yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | | | | |
| Xarici ölkələrdə aparılan fəaliyyətlərindən yaranan məzənnə fərqi | | | | | | | | |
| Xalis Aktivlərdə/Kapitalda tanınan gəlir | | | 152 116,54 | | | 152 116,54 | | **152 116,54** |
| Hesabat dövrü üzrə xalis mənfəət (zərər) | | | | | | | | |
| **Dövrə aid cəmi tanınan gəlirlər və xərclər** | | | | | | | | |
| **Əvvəlki hesabat dövrünün sonuna balans** | | | 173 483,34 | | | 173 483,34 | | **173 483,34** |
| | | | | | | | | |
| **Hesabat dövrü üzrə Xalis Aktivlər/Kapitalda dəyişikliklər** | | | | | | | | |
| Əmlakın yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | | | | |
| İnvestisiyaların yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | | | | |
| Xarici ölkələrdə aparılan fəaliyyətlərindən yaranan məzənnə fərqi | | | | | | | | |
| Xalis Aktivlərdə/Kapitalda tanınan gəlir | | | 199 586,86 | | | 199 586,86 | | **199 586,86** |
| Hesabat dövrü üzrə xalis mənfəət (zərər) | | | | | | - | | |
| **Dövrə aid cəmi tanınan gəlirlər və xərclər** | | | | | | | | |
| **Hesabat dövrünün sonuna balans** | | | **373 070,20** | | **-** | **373 070,20** | | **373 070,20** |

**Hüseynli Səfəq Tofiq qızı**
Direktor
Azərbaycan Respublikası, Bakı şəhəri
30 iyun 2021-ci il

**İbrahimova Səma Vaqi**
Maliyyə şöbəsinin müdir
Azərbaycan Respublikası, Bakı şəhəri
30 iyun 2021-ci il

[1] Digər ehtiyat fondları əhəmiyyətli olduqları təqdirdə öz tərkib hissələri üzrə təhlil olunur

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**

(birbaşa metod) ƏLAVƏ 4

**31 dekabr 2020**

**Müəssisə, təşkilat** **Azərbaycan Milli AntiDopinq Agentliyi Publik Hüquqi şəxs**

antidoppinq xidməti

| | Qeydlər | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|---|
| | | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| *Pul daxilolmaları:* | | | |
| Vergilər, rüsumlar və cərimələr nəticəsində yaranan pul vəsaiti daxilolmaları | | | |
| Təsərrüat subyektləri tərəfindən təmin edilən mal və xidmətlərin qiymətləri üzrə yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| Qrantlar və ya transfertlər və mərkəzi hökumət və ya dövlət sektorunun digər qurumu tərəfindən həyata keçirilən digər vəsaitlər və büdcə ayırmaları nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | 3 210 000,00 | 3 009 600,00 |
| Royalti, haqlar, komisyon yığımları və digər gəlirlərdən yaranan pul vəsaitlərinin daxilolması | | | |
| Sığorta şirkətinin sığorta mükafatları və ya iddialar, annuitetlər və digər müavinət siyasətləri üzrə pul vəsaitlərinin daxilolmaları | | | |
| CƏMİ DAXİLOLMALAR | | 3 210 000,00 | 3 009 600,00 |
| | | | |
| *Pul xaricolmaları:* | | | |
| Fəaliyyətin maliyyələşdirilməsi üçün ictimai sektorun digər təsərrüfat subyektlərinə pul vəsaitlərinin ödənilməsi (kreditlər istisna olmaqla) | | | |
| Mallara və xidmətlərə görə təchizatçılara pul vəsaitlərinin ödənişləri | | 1 609 272,81 | 1 797 827,61 |
| İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | | 1 226 960,44 | 1 046 288,70 |
| Sığorta şirkətinin sığorta mükafatları və ya iddialar, annuitetlər və digər müavinət siyasətləri üzrə pul vəsaitlərinin ödənişləri | | | |
| Əməliyyat fəaliyyəti ilə əlaqədar olan əmlak vergisi və ya mənfəət vergisi ilə bağlı (müvafiq olan təqdirdə) pul vəsaiti ödənişləri | | | |
| Məhkəmə prosesləri ilə əlaqədar pul vəsaitlərinin ödənişləri | | | |
| Büdcəyə qaytarılan vəsait | | - | 5 596,43 |
| CƏMİ XARİCOLMALAR | | **2 836 233,25** | **2 849 712,74** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | 373 766,75 | 159 887,26 |

| | | | |
|---|---|---|---|
| | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| *Pul daxilolmaları:* | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi və digər uzunmüddətli aktivlərin satılmasından əldə olunan pul vəsaitləri | | | |
| Digər tərəflərə təqdim edilmiş avansların və kreditlərin qaytarılmasıdan pul vəsaitlərinin daxilolmaları (maliyyə institutlarının avans və kreditləri istisna olmaqla) | | | |
| İnvestisiyaların satılmasından gəlirlər | | | |
| CƏMİ DAXİLOLMALAR | | | |
| | | | |
| *Pul xaricolmaları:* | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi və digər uzunmüddətli aktivlərin əldə edilməsi məqsədilə pul vəsaitlərinin ödənişləri. Bu ödənişlər təsərrüfat subyekti tərəfindən öz gücünə inşa edilmiş tikili və avadanlıqlar, habelə layihələr üzrə kapitallaşdırılan xərclərə aid ödənişləri daxil edir. | | 85 153,63 | 159 887,26 |
| Digər tərəflərə təqdim edilən avanslar və borc vəsaitləri (dövlət maliyyə qurumlarına təqdim edilən avanslar və borc vəsaitləri istisna olmaqla) | | | |
| Xarici valyutada qiymətli kağızların alınması | | | |
| CƏMİ XARİCOLMALAR | | *85 153,63* | *159 887,26* |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(85 153,63)** | **(159 887,26)** |
| | | | |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| *Pul daxilolmaları* | | | |
| İstiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov (ipoteka) kağızlarının və digər qısamüddətli və uzunmüddətli istiqrazların buraxılmasından pul vəsaitlərinin daxilolmaları | | | |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| CƏMİ DAXİLOLMALAR | | | |
| | | | |
| *Pul xaricolmaları* | | | |
| Hökumətə verilən Dividendlər /Bölüşdürmələr | | | |
| Maliyyə icarəsi üzrə yerinə yetirilməmiş öhdəliyin qalıq məbləğinin azaldılması üçün icarəyə götürən tərəfindən pul vəsaitlərinin ödənişləri | | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| CƏMİ XARİCOLMALAR | | | |
| **Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | | |
| | | | |
| | | | |

| | | | |
|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması) | | **288 613,12** | **(0)** |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə ilin əvvəlinə olan qalıq | | - | - |
| **Pul vəsaitləri və onların ekvivalentləri üzrə ilin sonuna olan qalıq** | | **288 613,12** | - |

**Hüseynli Şəfəq Tofiq qızı**
Direktor
Azərbaycan Respublikası, Bakı şəhəri
30 iyun 2021-ci il

**İbrahimova Səma Vaqif qızı**
Maliyyə şöbəsinin müdiri
Azərbaycan Respublikası, Bakı şəhəri
30 iyun 2021-ci il

## MALİYYƏ HESABATLARINA QEYDLƏR

## AGENTLİK HAQQINDA MƏLUMAT

Azərbaycan Milli Antidopinq Agentliyi Publik Hüquqi şəxs (bundan sonra "Agentlik") Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin 21.12.2016-cı il tarixli 06 saylı Sərəncamına əsasən yaradılmış və Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Kommersiya Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 1503403061 qeydiyyat nömrəsi ilə 23.12.2016-cı ildə dövlət qeydiyyatına alınmışdır və VÖEN verilmişdir (VÖEN: 1503403061).

Agentliyin hüquqi ünvan: AZ 1072, Bakı şəhəri Nərimanov rayonu, Olimpiya, ev 4

## ƏMƏLİYYAT MÜHİTİ

Azərbaycan Respublikasında həyata keçirilən iqtisadi islahatlar maliyyə xidmətləri bazarının da genişlənməsi və inkişafına müsbət təsir göstərir. Müvafiq olaraq yerli qanunvericilik aktları da (vergi, gömrük, sığorta və s.) müxtəlif əlavə və dəyişikliklərə məruz qalır.

## TƏQDİMATIN ƏSASI

Agentlik mühasibat uçotunu Azərbaycan Respublikasında qüvvədə olan mühasibat uçotu haqqında qanunvericiliyə və qaydalara uyğun aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu qaydaları əsasında hazırlanmışdır. Maliyyə hesabatlarının hazırlanmasında hesabat tarixinə aktivlərin və öhdəliklərin qeyd olunmuş məbləğlərinə və hesabat dövründə gəlirlərin və xərclərin qeydə alınmış məbləğlərinə təsir edə biləcək hesablamalardan istifadə olunur.

## ƏMƏLİYYAT VALYUTASI

Təqdim olunan maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan manatıdır (AZN).

## UÇOT SİYASƏTLƏRİ

Aşağıdakı uçot siyasətləri əsaslı surətdə əhəmiyyətli olan maddələrə müvafiq olaraq Agentliyin maliyyə hesabatlarında tətbiq edilmişdir.

## UÇOT METODU

Maliyyə hesabatları ilkin dəyər konsepsiyası əsasında hazırlanmışdır.

## GƏLİRLƏRİN VƏ XƏRCLƏRİN UÇOTU

Gəlirlər hesablama metodu əsasında tanınır və əməliyyatlar başa çatdıqda uçota alınırlar. Müvafiq olaraq, əməliyyat xərcləri işlər və ya xidmətlər yerinə yetirildikdə hesablama metodu ilə uçotda əks etdirilir.

## PUL VƏSAİTLƏRİ VƏ EKVİVALENTLƏRİ

Pul vəsaitləri – nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir. Pul vəsaitlərinin ekvivalentləri – ödəmə müddəti üç ayadək olan, pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin dəyişməsi kimi cüzi riskə məruz qalan qısamüddətli qoyuluşlardır. Pul vəsaitlərinin ekvivalentlərinə hesabat ilinin sonunda xalis pul vəsaitləri və onların ekvivalentlərinə əlavə edilən hər-hansı bank overdraftı da daxildir.

## BANKLARDA YERLƏŞDİRİLMİŞ ƏMANƏTLƏR

Banklarda yerləşdirilmiş əmanətlər qarşı tərəfə pulun birbaşa verilməsindən yaranır. Banklarda yerləşdirilmiş əmanətlər pul vəsaiti qarşı tərəfə ödəmə şəklində verildikdə qeydə alınır.

## ÖDƏNİŞ TARİXİNƏDƏK SAXLANILAN İNVESTİSİYALAR

Ödəniş tarixinədək saxlanılan investisiyalar müəyyənləşdirilən və sabit ödənişli borc qiymətli kağızlarıdır. Bu cür qiymətli kağızlar ilk olaraq ədalətli dəyər üstəgəl birbaşa əməliyyat xərcləri məbləğində tanınır.

## ƏSAS VƏSAİTLƏRİN AMORTİZASİYASI

Aktiv kimi tanına bilən torpaq, tikili və avadanlıq obyekti əldə olunan zaman ilkin dəyəri əsasında tanınır. "İlkin dəyər" ödənilmiş pul və ya pul ekvivalentlərinin məbləğinə və ya ödənilmiş hər hansı digər əvəzləşdirmənin ədalətli dəyərinə bərabərdir. Əsas vəsaitlər yığılmış köhnəlmə və hər hansı qiymətdən düşmə zərəri çıxılmaqla ilkin dəyərlə tanınır ("ilkin dəyər modeli"). Torpaq istisna olmaqla əsas vəsaitlərin köhnəlməsi "azalan qalıq metodu" əsasında aktivlərin illik köhnəlmə dərəcələrini istifadə etməklə hesablanır:

Hər bir maliyyə ilinin sonunda aktivlərin qiymətdən düşmə zərərini müəyyən etmək üçün ilkin dəyərə əsaslanan balans dəyəri ilə bərpa oluna bilən dəyəri müqayisə edilir. Əgər balans dəyəri bərpa oluna bilən dəyərindən əhəmiyyətli dərəcədə artıq olarsa, bu iki dəyər arasındakı fərq mənfəət və zərər haqqında hesabatda xərc kimi göstərilməklə balans dəyəri bərpa oluna bilən dəyərə qədər silinir.

## QEYRİ-MADDİ AKTİVLƏR VƏ AMORTİZASİYA

Qeyri-maddi aktiv aşağıdakı meyarlara cavab verdikdə tanınır:

- Bu aktiv fiziki formaya malik olmayan qeyri-monetar aktiv olmalıdır;
- Ayrıca tanına bilinməlidir;
- Müəssisə aktiv üzərində nəzarət imkanına malik olmalıdır;
- Gələcəkdə iqtisadi səmərələr yaratmalıdır;
- Gələcəkdə iqtisadi səmərələrin müəssisəyə daxilolacağı ehtimalı olmalıdır;
- Aktivin dəyəri etibarlı qiymətləndirilməlidir.

Bu meyarlardan hər-hansı yerinə yetirilmədikdə xərclər qeyri-maddi aktiv kimi deyil, onların yarandığı dövrün xərcləri kimi tanınır. Qeyri-maddi aktivlərin tanınması onların ilkin dəyəri əsasında aparılır. Agentlik ilkin tanınmadan sonra qeyri-maddi aktivi amortizasiya çıxılmaqla ilkin dəyər ilə uçota alır ("ilkin dəyər modeli"). Qeyd etmək lazımdır ki, faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlər amortizasiya oluna bilərlər, faydalı istifadə müddətləri qeyri-müəyyən olan qeyri-maddi aktivlər isə amortizasiya oluna bilməzlər. Agentlik faydalı istifadə müddətinə malik qeyri-maddi aktivlərə amortizasiyanı "düz xətt metodu" ilə hesablayır. Bundan əlavə, balans dəyəri təyin edilmiş ədalətli dəyərlə müqayisə edilməli və ədalətli dəyər balans dəyərindən əhəmiyyətli dərəcədə aşağı olduqda, balans dəyərindən qiymətdən düşmə zərəri çıxılmalıdır. Aktiv qiymətdən düşəndə ona amortizasiyanın standart qaydalarının tətbiq edilməsi davam etdirilir.

## EHTİYATLAR

Ehtiyatlar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə qiymətləndirilirlər.

## VERGİLƏR

Vergilərin məbləği balans tarixinə qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq hesablanır.

## İNVESTİSİYALAR

Digər müəssisələrin qiymətli kağızlarına və aktivlərinə qısamüddətli və uzunmüddətli investisiyalar ilkin dəyər və ehtimal edilən satış dəyərindən daha az olan dəyərlə tanınır.

### Ödəniş tarixinədək saxlanılan investisiyalar

Adətən aşağıdakı beş meyara uyğun olduğu zaman investisiyalar "ödəniş müddətinə qədər saxlanılan investisiyalar" kimi təsnifləşdirilir:

- qeyri-törəmə aktivlərdir;
- sabit və ya müəyyənləşdirilə bilən ödənişlərdir;
- sabit ödəmə müddətinə malik olmalıdırlar;
- Cəmiyyətin aktivləri ödəniş müddətinə qədər saxlamaq üzrə kəskin niyyəti vardır;
- Cəmiyyət aktivləri ödəniş müddətinə qədər saxlamaq üçün maliyyə imkanına malikdir.

## QİYMƏTLƏNDİRİLMİŞ ÖHDƏLİKLƏR

Gələcəkdə yaranacaq öhdəlik ehtimal edildikdə, bu ehtimal yarandığı andan bəri qeyd edilmiş öhdəlik qiymətləndirilmiş öhdəlik kimi tanınır.

## XARİCİ VALYUTA İLƏ APARILMIŞ ƏMƏLİYYATLAR

Agentliyin əməliyyat valyutası manatdır.

Xarici valyutada olan monetar maddələr (kassa qalığı, hesab qalığı, debitor borclar, kreditor borclar, öhdəliklər və s.) Agentliyin balans hesabatının bağlandığı tarixə olan valyuta məzənnəsindən istifadə etməklə hesabat verdiyi valyutaya dəyişilir. Xarici valyutada olan maya dəyəri ilə qiymətləndirilən qeyri-monetar maddələr tanınmış maya dəyəri nəticəsində ilkin əməliyyatın aparıldığı zaman mövcud olan valyuta məzənnəsi istifadə olmaqla çevrilir.

Xarici valyutada olan ədalətli dəyər ilə qiymətləndirilən (və ya yenidən qiymətləndirilmiş) qeyri-monetar maddələr ədalətli dəyər müəyyən edilən (və ya yenidən qiymətləndirilmə aparılan) günə olan valyuta məzənnəsi istifadə olunmaqla çevrilir. Xarici valyuta ilə ifadə olunmuş monetar maddələr ilə əlaqədar yaranan məzənnə fərqləri mənfəət və zərər haqqında hesabat vasitəsilə mühasibat uçotuna daxil edilir. Qeyri-monetar maddələrlə bağlı digər mənfəət və ya zərərin mənfəət və zərər haqqında hesabat vasitəsilə tanındığı hallarda yaranan məzənnə fərqləri də həmçinin bu hesabatlara daxil edilir.

Mənfəət və ya zərərlər kapital vasitəsilə tanındığı hallarda müvafiq olaraq, məzənnə fərqləri də həmçinin kapital vasitəsilə tanınır.

Xarici valyuta əməliyyatlarının uçotu Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi məzənnələri əsasında aparılıb.

| | 31.12.2020 | 31.12.2019 |
|---|---|---|
| 1 ABŞ dolları | 1,7000 | 1,7000 |
| 1 avro | 2.0890 | 1.9035 |

## ƏVƏZLƏŞDİRMƏ

Maliyyə aktivləri və öhdəlikləri yalnız o zaman əvəzləşdirilir ki, qarşılıqlı əvəzləşdirmənin həyata keçirilməsi üçün qanuni hüquq mövcud olmalı, iki alətin qarşılıqlı əvəzləşdirilməsi niyyəti və hər iki müqavilənin eyni zamanda reallaşdırılması niyyəti olsun.

## İŞÇİLƏRİN ƏMƏYİNİN ÖDƏNİLMƏSİ İLƏ BAĞLI XƏRCLƏR VƏ MƏCBURİ SOSİAL SIĞORTA AYIRMALARI

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Agentlik işçilərin əmək haqlarından məcburi sosial sığorta haqları tutur və onları təyinatı üzrə köçürür. Agentlik Dövlət Sosial Müdafiə Fondunun qaydalarından əlavə ümumi əmək haqqı ödənişlərinin faizi kimi hesablanmış işçilər tərəfindən cari yardımları tələb edən pensiya ilə bağlı hər hansı fərdi qaydalara malik deyildir. Bundan başqa, Agentlikdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

## ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Əlaqəli tərəflərlə münasibətlər, bir tərəfin digərinin iqtisadi və əməliyyat qərarlarına nəzarət etmək və ya onlara əhəmiyyətli təsir göstərmək hüququna malik olduğu münasibətlərdir. Hər bir əlaqəli tərəflə münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin iqtisadi məzmununa yönəldilir.

## MALİYYƏ ALƏTLƏRİ VƏ ONLARIN ƏDALƏTLİ DƏYƏRİ

Maliyyə alətləri bir müəssisənin maliyyə aktivlərinin və digər müəssisənin maliyyə öhdəlyinin yaranmasına səbəb olan hər hansı sənəd və ya müqavilədir. Bu ikili aspekt hər zaman mövcud olmalıdır. Əgər bu aspektlərdən hər hansı biri mövcud deyilsə, onda müqavilə maliyyə aləti deyildir. Ədalətli dəyər, məcburi satış və ya ləğvetmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və sərbəst katirovkası olan bazar qiymətləri ilə təsdiqlənir.Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Agentlik tərəfindən

mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

## MALİYYƏ AKTİVLƏRİ

Pul vəsaiti, digər müəssisədə kapital kapital aləti (yəni, bir qayda olaraq səhmlər), digər müəssisədən pul vəsaiti almaq üzrə müqavilə hüququ, müəssisənin əlverişli şərtlər əsasında öz maliyyə aktivlərini və öhdəliklərini mübadilə etməsi üzrə müqavilə hüququ və s. maliyyə aktivləri hesab olunur. Bütün monetar aktivlər müddət baxımından "tələb edilənədək və bir ildən az" kateqoriyasına daxil olduğu üçün onların ədalətli dəyəri təxminən balans dəyərinə bərabərdir.

## MALİYYƏ ÖHDƏLİKLƏRİ

Digər müəssisəyə pul vəsaitinin ödənilməsi ilə əlaqədar müqavilə öhdəliyi (kreditor borclar, kreditlər), müəssisə üçün əlverişli ola bilməyən maliyyə aktivləri və ya maliyyə öhdəliklərinin mübadiləsi ilə əlaqədar olan müqavilə öhdəliyi və s. maliyyə öhdəlikləri hesab olunur. Bütün monetar öhdəliklər müddət baxımından "tələb edilənədək və bir ildən az" kateqoriyasına daxil olduğu üçün, onların ədalətli dəyəri təxminən balans dəyərinə bərabərdir.

## MALİYYƏ AKTİVİ VƏ YA MALİYYƏ ÖHDƏLİYİNİN AMORTİZASİYA EDİLMİŞ DƏYƏRİ VƏ EFFEKTİV FAİZ METODU

Bu iki anlayış maliyyə aktivi və ya maliyyə öhdəliyinin ilkin tanınma dəyəri üzrə tələb olunan hesablamalara aid edilir. Amortizasiya edilmiş dəyər sadəcə olaraq müddət üzrə pul vəsaitlərinin hərəkətini deyil, aktiv (və ya öhdəlik) müddətində qazanılmış real maliyyə gəlirlərini (və ya yaranmış məsrəfləri) nəzərdə tutur. Effektiv faiz dərəcəsi diskontlaşdırma əmsalı kimi istifadə olunaraq gələcək gəlir axını (investisiyadan gələn) xalis balans dəyərinə endirilir. Həmin faiz dərəcəsi sonradan aktivin əldə edildiyi hər bir müddət üzrə əldə olunan maliyyə gəlirlərini müəyyənləşdirmək üçün istifadə olunur. İl ərzində qazanılan real faiz dərəcəsini və illik faktiki pul vəsaiti gəlirini müəyyənləşdirdikdən sonra, aktivin balans dəyəri hesablanır.

## ƏMƏLİYYAT RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Agentlikdə risklərin idarə olunması və monitorinqi həyata keçirilərək aşağıdakı əsas risk növləri fərqləndirilir.

### *KREDİT RİSKİ*

Digər tərəfin müqavilə şərtlərini yerinə yetirmək qabiliyyətinin olmaması və ya müqavilənin əsas şərtlərini və ya Agentliyə münasibətdə digər öhdəlikləri pozması nəticəsində meydana çıxan xərclərin və ya zərərlərin yaranma riski, o cümlədən ölkə xaricindən ödəmələrin köçürülməsi zamanı meydana çıxan risklər kredit riskləri hesab olunur. Rəhbərlik kredit risklərinə müntəzəm nəzarət edir.

### *HÜQUQİ RİSKLƏR*

Agentlik tərəfindən qanunvericiliyin tələblərinin pozulması və həyata keçirilən əməliyyatların daxili sənədlərlə, xaricilərə münasibətdə isə digər ölkələrin qanunvericilikləri ilə uyğunsuzluğu nəticəsində xərclərin və ya zərərlərin yaranma riski hüquq riski kimi təsnifləşdirilir. Rəhbərlik hüquq risklərinə vaxtaşırı nəzarət edir.

### *ƏMƏLİYYAT RİSKİ*

Əməliyyat riski Agentlik tərəfindən daxili nəzarətin təşkilinə dair tələblərin pozulması (yerinə yetirilməməsi), habelə informasiya texnologiyaları sistemində əhəmiyyətli nasazlıqların baş verməsi nəticəsində meydana çıxan xərclərin (zərərlərin) yaranma riskidir. Agentlik tərəfindən əməliyyat riskinin qaşısının alınması üçün qabaqlayıcı tədbirlər görülmüşdür.

### *BAZAR RİSKİ*

Bazar riski bazar qiymətlərinin dəyişməsi nəticəsində Agentliyin vəsaitləri və gəliri üçün yarana biləcək mövcud və ya gələcək təhlükədir. Bazar riski qiymət, valyuta və faiz risklərinə bölünür. Agentliyin rəhbərliyi bazar risklərini qarşılamaq üçün müntəzəm olaraq adekvat tədbirlər görür.

*QİYMƏT RİSKİ*

Maliyyə bazarlarında dəyişikliyin baş verməsinin Agentliyin maliyyə alətlərinin bazar dəyərinə təsiri nəticəsində xərclərin və ya zərələrin yaranması riski qiymət riski hesab olunur.

*VALYUTA RİSKİ*

Agentliyin öz fəaliyyətini həyata keçirməsi zamanı müəyyən beynəlxalq valyuta məzənnəsinin dəyişməsi ilə əlaqədar xərclərin və ya zərərlərin yaranması riski kimi müəyyən olunur. Xarici valyuta məzənnəsindəki dəyişikliklər Agentliyin maliyyə durumuna və pul vəsaitlərinin hərəkətinə təsir edir. Dövrün sonuna Agentliyin Azərbaycan manatı, Avro və ABŞ dolları ilə qalıqları bu maliyyə hesabatlarının müvafiq bölmələrində açıqlanmışdır.

*FAİZ RİSKİ*

İnvestisiyalar üzrə faiz dərəcələrinin dəyişməsi ilə əlaqədar xərclərin və ya zərərlərin yaranması riski faiz riski kimi təsnifləşdirilir.

*NÜFUZ RİSKİ*

Nüfuz riski – mənfi ictimai rəy və Agentlikdə olan etibarın azalması nəticəsində xərclərin və ya zərərlərin yaranması riskidir. Rəhbərlik Agentliyin işgüzar nüfuzunun və müştəri etimadının yüksək səviyyədə saxlanması üçün tədbirlər həyata keçirir.

*TRANSFER RİSKİ*

Xarici hüquqi şəxsin ödəmə qabiliyyətinin olmaması və ya kredit risklərindən asılı olmayan səbəblərdən Agentlik qarşısındakı öhdəliklərini yerinə yetirmək istəyində olmaması nəticəsində xərclərin və ya zərərlərin yaranması transfer riski hesab olunur. Agentlik transfer riskləri ilə üzləşməmək üçün adekvat addımlar atmaq məcburiyyətində olur.

*MƏHKƏMƏ İŞLƏRİ*

Hesabat dövründə müştərilər və üçüncü şəxslər tərəfindən Agentliyə qarşı heç bir iddia irəli sürülməmişdir.

## HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat tarixindən sonrakı dövrdə təqdim edilmək üçün əhəmiyyətli hadisə baş verməmişdir.